**“Təsdiq edirəm”**
**Azərbaycan Dövlət Pedaqoji**
**Universitetinin rektor**
**_____________ t.e.d. professor C.M.Cəfərov**
**“___” ____________ 2022-ci il**

**Publik hüquqi şəxs statusuna malik olan**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
**Tarix və coğrafiya fakültəsi haqqında**
**ƏSASNAMƏ**

## 1. Ümumi müddəalar

1.1 Azərbaycan Dövlət Pedaqoji Universitetinin (bundan sonra-Universitet) Tarix və coğrafiya fakültəsinin (bundan sonra-fakültə) əsasnaməsi “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa, publik hüquqi şəxs statusuna malik olan Universitetin Nizamnaməsinə və digər qanunvericilik aktlarına uyğun olaraq hazırlanmışdır.

1.2. Fakültə Universitetin Elmi Şurasının qərarı ilə yaradılır.

1.3. Fakültə özündə ixtisasa aid və mütəxəssislərin sosial-humanitar, ümumi elmi və ümumi təhsil hazırlığını həyata keçirən 6 kafedranı birləşdirir: Azərbaycan Coğrafiyası və CTT, Ümumi Coğrafiya, Ümumi Pedaqogika, Ümumi Tarix və TTT, Azərbaycan Tarixi, Fəlsəfə və Sosial Elmlər.

1.4. Fakültə aşağıdakı prinsiplər əsasında fəaliyyət göstərir:

-İnsan hüquqlarının təmin edilməsi;
-şəxsiyyətə hörmət;
-ədalətçilik;

-şəffaflıq;

-təhlükəsiz mühitin təmin olunması;

- təhsil alanlar üçün bərabər imkanların və keyfiyyətli təhsilin təmin edilməsi;

- təhsilin keyfiyyətinin dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilməsi;

- sağlam rəqabət mühitinin təmin edilməsi;

- maraqların toqquşmasının qarşısının alınması;

- kreativliyin dəstəklənməsi;

- elmi-tədqiqat fəaliyyətinin azadlığı;

- tədqiqatın həmrəyliyi;

- elmi-metodiki və praktiki bazanın aktuallığı;

- plüralizm mühitinin təşviq edilməsi;

- etik standartların tədris və elmi-tədqiqat proseslərinə inteqrasiyası.

## 2. Fakültə bölmələri və fəaliyyət prosesi

2.1 Fakültəyə dekan rəhbərlik edir. Dekan, müavinləri və kafedra müdirləri ilə birlikdə fakültədəki iş prosesini təşkil etməkdə məsul olan şəxsdir. Fəaliyyət prosesi:

2.1.1 Əsas təhsil proqramının layihələndirilməsi və tərtib edilməsi - Dekan, dekan müavinləri və kafedra müdirləri

2.1.2 Təhsil proqramının həyata keçirilməsi - Dekan, dekan müavinləri və kafedra müdirləri

2.1.3 Təhsil alanlarla tərbiyəvi və dərsdən kənar işlər - Dekan və dekan müavinləri

2.1.4 Yüksək ixtisaslı kadrların hazırlanması - Kafedra müdirləri

2.2 Tarix və coğrafiya fakültəsi Azərbaycan Dövlət Pedaqoji Universitetinin tədris, elm və inzibati fakültəsi olub, “Tarix müəllimliyi”, “Tarix müəllimliyi”(rus), “Tarix və coğrafiya müəllimliyi”, “Coğrafiya müəllimliyi”, “Cografiya müəllimliyi”(rus), “Sosial iş” ixtisasları üzrə bakalavr, “Vətən tarixi”, “Təlim və tərbiyənin nəzəriyyəsi metodikası (“Tarixin tədrisi metodikası”), “Coğrafiyanın tədrisinin metodikası”,

“Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi”, “Müəllim hazırlığı və fəaliyyəti” üzrə doktorantlar hazırlayır.

2.3 Tarix və coğrafiya fakültəsində həm də magistr pilləsində “Həyat fəaliyyətinin müxtəlif sahələrində iş”, “Gənclərlə iş”, “Pedaqogika nəzəriyyəsi və tarixi”, “Tarix fənninin tədrisi metodikası və metodologiyası”, “Coğrafiya fənninin tədrisi metodikası və metodologiyası” üzrə magistrlər hazırlanır.

2.4 Tarix və coğrafiya fakültəsində müəllim ixtisasları üzrə kadrlar, bolonya prosesi kredit sisteminin prinsiplərinə uyğun olaraq (əyani və eksperimental) hazırlanır.

**3. Fakültənin əsas vəzifələri**

3.1 Dövlət təhsil standartına, tədris proqramlarına və planlarına uyğun ixtisaslar üzrə əsas təhsil proqramının həyata keçirilməsi;

3.2 dərin nəzəri və zəruri praktik biliklərə malik olan yüksək ixtisaslı mütəxəssislərin hazırlanması;

3.3 gələcəyin müəlliminin mənəvi və vətəndaş kimi formalaşması;

3.4 tədris prosesinin müvafiq fənnlər üzrə metodik təminatının keyfiyyətini artırılması;

3.5 professor-müəllim heyətinin ixtisasının artırılması;

**4. Funksiyalar**

4.1 **İdarəetmə fəaliyyəti**

4.1.1. Fakültənin fəaliyyətinə seçkili orqan- fakültə Elmi Şurası rəhbərlik edir. Fakültə Elmi Şurası Universitetin Elmi Şurası tərəfindən qəbul olunmuş və rektor tərəfindən təsdiq edilmiş müvafiq əsasnamə əsasında fəaliyyət göstərir. Fakültə Elmi Şurasının sədri dekandır.

4.1.2. Dekan bir qayda olaraq müsabiqə yolu ilə 5 il müddətinə seçilir. Dekan vəzifəsinin tutulması proseduru Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Kollegiyasının 15.11.2017-ci il tarixli 5/5 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri,dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları” ilə müəyyən edilir.

4.1.3. Dekan fakültənin fəaliyyəti ilə bağlı Universitetin Elmi Şurasına və rektora hesabat verir.

4.1.4.Dekan Universitetin Elmi Şurasının üzvüdür. Dekan universitetin digər rəhbər və idarəetmə strukturlarının tərkibinə daxildir.

4.1.5. Fakültədəki iş prosesinin təşkilində dekana, dekan müavinləri köməklik göstərir. Dekan müavinləri fakültənin profilinə uyğun baza təhsilli, ən azı 3 il elmi-pedaqoji təcrübəsi olan mütəxəssislər arasından fakültə dekanının təqdimatı əsasında universitetin rektoru tərəfindən təyin edilir.

4.1.6. Dekanlığın ştat sayı, əməkdaşlarının əməyinin ödənilməsi və şərtləri ştat cədvəli ilə müəyyən edilir. Dekanlığın ştat cədvəli rektor tərəfindən təsdiq edilir.

4.2. **Tədris fəaliyyəti**

4.2.1. Dekan fakültə üzrə dərs cədvəllərinin təsdiq olunmuş tədris planına uyğun tərtib edilməsinə nəzarət edir.

4.2.2. Dekan kafedralar ilə birgə fakültə elmi şurasında tədris proqramı üzrə yekun dövlət attestasiyasının, dövlət imtahanlarının keçirilməsi proqramını təsdiq edir.

4.2.3. Dekanlıq təhsil alanların aralıq qiymətləndirilməsinin keçirilməsini təşkil edir.

4.2.4. Dekanlıq təhsil alanların təcrübə keçməsini təşkil edir.

4.2.5.Dekan kefedralarla birlikdə tədris prosesinin təkmilləşdirilməsi üçün tədbirlər həyata keçirir.

4.2.6. Dekan Bolonya prosesinin təşviqi və tətbiqi, kredit sistemi ilə tədrisin təşkili, AKTS sisteminin tətbiq edilməsi və tələbələrə kömək göstərilməsi məqsədi ilə fakültədə akademik məsləhətçilərin (tyutorlar) xidmətini təşkil edir.

4.2.7. Dekan fakültənin illik iş planının yerinə yetirilməsini təmin edir.

4.3. **Tədris-metodiki iş**

4.3.1 Yeni tədris ili üçün fakültənin tədris-metodiki şurasının iş planı fakültə Elmi Şurasında müzakirə olunur və təsdiq edilir.

4.3.2.Dekan, Universitetin Elmi Şurasında keçmiş tədris ilində fakültənin fəaliyyəti ilə bağlı hesabat verir.

4.3.3.Dekan fakültədə tədris- metodiki işlərinin təkmilləşdirilməsi ilə bağlı fakültə və Universitet elmi şualarında baxılması üçün təkliflər verir.

4.4. **Elmi-tədqiqat işi**

4.4.1.Dekan fakültənin elmi fəaliyyətini təşkil edir və yerinə yetirilməsinə nəzarət edir.

4.4.2. Dekanlıq təhsil alanların kafedralarda, laboratoriyalarda, tələbə elmi cəmiyyətində apardıqları elmi-tədqiqat işlərini əlaqələndirir və ümumi rəhbərliyi həyata keçirir.

4.4.3.Dekanlıq təhsil alanların konfranslarda və elmi qrantların alınması üçün iştirak etmələrinə şərait yaradır.

**5.Əlaqələr**

Dekanlıq öz fəaliyyətini digər struktur bölmələri ilə qarşılıqlı əlaqədə həyata keçirir.

Bu əsasnamə Fakültə Elmi Şurasının “12” “sentyabr” 2022-ci il tarixli iclasında ( 1 №-li protokol) qəbul edilmişdir.

**Tarix və coğrafiya fakültəsinin dekanı : dos.A.Ə.Axundov**